## Özbək ədəbiyyatı



*Gülzirə Haşımcan qızı Şaripova 1957-ci ildə Özbəkistan Respublikasının Oş vilayətində anadan olub. Ali təhsillidir. Daşkənd Dövlət Universitetinin hüquqşünaslıq fakültəsini bitirib. Məhkəmə, prokurorluq, icra və ədliyyə orqanlarında çalışıb. Hazırda "Demokratiya və insan hüquqları" institutunun Daşkənd vilayət ərazi bölməsinin direktorudur. Həm də yaradıcılıqla məşğuldur. Şeirləri Özbəkistanda olduğu kimi Azərbaycanda da sevilə-sevilə oxunur.*

**GÜLZİRƏ ŞARİPOVA**

# SƏN MƏNİ DAN ÇAĞI YOXLA, ƏZİZİM

Sən məni dan çağı yoxla, əzizim,
Bütün acılarım səmaya yetsin.
Sənin sevgi dolu o sözlərindən,
Mənim təslim könlüm sel olub getsin.

Sən məni dan çağı yoxla, əzizim,
Etiraf eləyim nəyim var bu an.
Sən isə ahəstə, sakitcə dinlə,
Ta ki əlimizdən çıxmayıb imkan.

Sən məni dan çağı yoxla, əzizim,
Səxavətli günəş nurun saçanda.
Təbəssüm bəxş elə sən mənə bu an -
Ürək səni tamam gördüyü anda.

Sən məni dan çağı yoxla, əzizim,
Ürəyim aramsız gülsün, kam alsın.
Söz tapa bilməsin bu yanmış dilim,
Üzünün nurundan heyrətdə qalsın.

Sən məni dan çağı yoxla, əzizim,
Gör dəniz suyutək sakit eşqimi.
Onun dalğalarıürək döyüntüm,
Yandırmağı isə lap Günəş kimi.

Sən məni dan çağı yoxla, əzizim,
Ürəyim bircə yol şad olsun barı.
O, ötən illərin əlindən tutub,
Yol getsin gələcək bəxtimə sarı.

Sən məni dan çağı yoxla, əzizim…

# KÖNÜL ETİRAFI

Yarım, səni mahnılarda sədalara tay bildim mən,
Ay hüsnünə hərdəm düşən nidalara tay bildim mən.
Susuzluqda razı olub, gəzdim sonsuz səhraları,
Sən bir ulduz, göy üzündə sədalara tay bildim mən.

Olmaq azdır, bu dünyada yaşa ürək ocaqlarda,
Tanrı bizi hifz eləsin hicranlardan, fəraqlardan.
Səni dedim, tək tapıldın bu gün dostlar dünyasında,
Bizə qənim olan dillər ötsün daim uzaqlarda.

Allah özü köməkçidir, ilham alaq bu canlardan,
Səhər durub gülə baxdım, nəva tapdım o danlardan.
Yarım, sənə ürəyimdə nə vardısa izhar etdim,
Özün qoru, Yaradanım, bizi vaxtsız xəzanlardan.

***

Əsdi sübh çağının yeli qəflətən,
Alıb qaçdı mənim söz-söhbətimi.
Uzaq keçmişlərə, ötən illərə
Yada saldı odlu məhəbbətimi.

Sən idin qəlbimdə açan bir çiçək,
Ətrin bu dünyanı tutmuşdu tamam.
Bu gün məhəbbətlər bir adi çöptək,
Sənin sevgin isə təkrarsız və tam.

İllər belə ötdü, fərəhli, kövrək,
Kövrəyi sonradan yad etmək neçün.
Hələ də o eşqin əlindəyəm mən,
Daima qəlbimi isitdiyiyçün.

Hələ qoruyuram məhəbbətimi,
Qoymaram toxunsun ona bir zaval.
Sənsiz yaşamağın mənası yoxdur,
Əgər gərəkdirsə, həyatımı al.

Gecikən deyilsən, bunu bilirəm,
Ürək səsləyəcək məni hər zaman.
Tanrı ulduzumu bir yerə sancmış,
Həmən o ulduzam, daim parlayan.

## NƏSİMİNİN 650 İLLİYİNƏ

Böyük təntənədir türkün elində -
Dahi Nəsiminin təvəllüd günü.
O, şair oğludur Azərbaycanın,
Oğlu hesab edir özbək də onu.

Yaşayır hər sözü doğma elində,
Dedi: ürəyini yalnız Haqqa ver.
Ötdü bülbül kimi ana dilində,
Tapdı misraları ürəklərdə yer.

Seyyid İmadəddin Nəsimidir o,
Nəzmdə yüksəldi dağlar misalı.
Tarixin qızılı vərəqlərində
Mərdlik və hünərdə dəniz timsalı

## GƏNCLİYİ ANDIM

Bahar çağı nəğmələrə səda olan,
Mənim şirin anlarıma fəda olan,
Bəxt haqqında nağıl deyib, nida olan,
Səni anıb, yada saldım, ey gəncliyim!

Qaynar həyat qucağına yol deyən sən,
Məşəqqətli mənzilləri dinləyən sən,
Getdiyim an dalda qalıb inləyən sən
Səni anıb, yada saldım, ey gəncliyim!

Neçə illər ötsə, hətta, yadımdasan,
Həmnəfəssən, mənimləsən, adi də sən.
Həmin andan unudulmaz, adımdasan,
Səni anıb, yada saldım, ey gəncliyim!
Harayımda, xəyalımda qal, gəncliyim!

*26.11.1996*

## SƏNİ CANDAN SEVİRƏM MƏN

Hicranından olub ürəyim xəstə,
Gah şad olur, gah da deyir şikəstə.
Sevgim köçüb, tablaşıram mən asta,
Yenə səni gözləyəcəm.

Safdır məhəbbətim, eləmə sən ar,
Könlüm ağlar, eşq yolunda olub zar.
Yollarında gözüm qalıb intizar,
Yenə səni gözləyəcəm.

Sənsiz bilirsənmi, qış olur günüm,
Gəlsən, çıraqbandır gecələr önüm.
Əgər haraylasan: "Gəl!" - deyə, gülüm,
Sənin hüzuruna mən gələcəyəm,
Səni candan sevəcəyəm.

## ANAMIN XATİRƏSİNƏ

Ana, qucağından ayrıyam bu gün,
Sənsiz guya səhra, bizim evimiz.
Yaxınlarım da yanımdadır, lakin,
Ürəyim ağlardır, ayrılmışıq biz.

Bu evdə oturmaq nə qədər müşkül,
Sənsizliyə öyrəşə bilmir ürək.
Solub gedir ürəyimdə bir gül,
Qayıdıb daha da yanmağım gərək.

Mən də gedəcyəm, heç qalmadı ərk,
Səni axtarmağa varmı doğru yan?
Gedəcək yollarım açıqmı, ya bərk,
Ürək nalәsini edirəm bəyan.

Səndən aralıyam, yox özgə həyan,
Həyat isə durmaz, o, davam edər.
Gözünün önündə üzülsə anan,
Hətta daşlar beləəriyib gedər.

Ah, bu cür dərdlərə tab etmək müşkül,
Valideyn yaradan, o verir həyat.
Döşə ayağına qucaq-qucaq gül,
Eylə ürəyini həmişə abad.

Könlüm bir də səni dada biləydi,
Həmin dərdlər ilə bir daha yanam.
Taleyim üzümə bir də güləydi,
Görüşə biləydik məhşərdə, anam!

## QISQANCLIQ

Acı oldu yarın ürək azarı,
Saralıbdıürəyimin gülzarı.
Ucuzlaşıb məgər eşqin bazarı?
Xəyanətlər çoxalıbdır yar, indi,
Məhəbbətim sədaqətə zar indi.

Unutdunmu yarım, eşqdə təlimi,
Tapmalıydım səntək sevgi gülümü.
Bir gün gəlib öpəcəksən əlimi,
Xəyanətlər çoxalıbdır yar, indi,
Məhəbbətim sədaqətə zar indi.

# KƏPƏNƏK

Çəmənlərdə uçan kəpənək,
Qanadlarının yoxdu tayı.
Uşaqlara tutulmağın istək
Görmüsənmi səmanı, Ayı?

Yenə dəşadlan, uç biqubar,
Uçub qon, bağrıgen güllərə.
Bir günündə həyat zövqü var,
Ömrün tən olsun yüz illərə.

# QƏRAR

Salamat qal, bağrıdaşım,
Qaldı bağrım, nə edərəm?
Mərcana döndü göz yaşım,
Başımı alıb gedərəm.

Çətin sənin ah çəkməyin,
Dörd tərəfdən gəlir azar.
Tapılmırsan, mən gedirəm,
İzlərimdə silinmə var .

Getmə, - deyib yalvarma sən,
Qalmağıma yoxdur hacət.
Sevgi dolu ürək qırıq,
Sındırdı onu xəyanət.

Eşq dəyəri ucuzlaşıb,
Ürəklərdə gün, an yox.
Saxta ah-vay olan yerdə,
Məhəbbətə meydan yox.

# MƏHƏBBƏT

Məhəbbət - ad almış bir duyğu,
Qəlbimin torunda bayıldı.
Tapantək yeni bir dərd duyan,
Eşq olub dünyaya yayıldı.

Nə qədər dadlıdır vüsalı,
Dinəndə lal etdi dilimi.
Sevməkdir onun tam xəyalı,
Hicranı yandırdı qəlbimi.

Məhəbbət gizlənib canımda,
O səndə gözləyir cəsarət.
Özgələr duymasın eşq sirrin,
Danma, var könlündə şücaət.

***

Vüsalına təşnə könül,
Dilənçitək sevgi umar.
Eybi candan sevməyi, bil,
Bir ömürə dərdi dolar.

Zərrə sevgi ver, nə itər?
Gecən olar nur, çıraqban.
Bunun özü də bəs edər,
Bunun üçün qurbandı can.

# SƏNİ SEVİRƏM

Məhəbbət dərdi çox ağır,
Eşq sehrindən dərdli bağır.
Çiyin daşın gərək axır,
Səni sevsəm, nə edərəm,
Baş alıb hara gedərəm?

Uzaqdır Məcnun səhrası,
Var yenə Tahir-Zöhrəsi.
Zövqdür eşqin son çevrəsi,
Səni sevsəm, nə edərəm,
Baş alıb hara gedərəm?

Sevən oddan yara alar,
Aşiqlər eşqdən saralar.
Ürəklərdə eşq yer alar,
Səni sevsəm, nə edərəm,
Baş alıb hara gedərəm?

Artıq bəxt yox bil, sevməkdən,
Çəkinmə yaxın gəlməkdən.
Şərəf - sən deyib ölməkdən,
Səni sevsəm, nə edərəm,
Baş alıb hara gedərəm?



***TƏRCÜMƏ ŞAHMƏMMƏD DAĞLAROĞLUNUNDUR***